GÜNEY AZƏRBAYCAN QURTULUŞ PARTİYASI
SOUTH AZERBAIJAN FREEDOM PARTY

# Güney Azərbaycan Qurtuluş Partiyasının (Qurtuluş) tarixinə qissa bir baxış!

**Əziz Azərbaycan Türk Milləti!**

1990-ci il Təbrizdə millətimizin millətçi oğul-qızları "Dildə, Düşüncədə, İşdə birlik" cəsarətilə yola çıxaraq millətçi bir təşkilatın təməlini qoydular. Azərbaycanın bütövlüyü və tam qurtuluşunu özünün yüksək hədəfi tutan bu igidlər, rejimin gözü qarşısında ***"Azərbaycan Qurtuluş Təşkilatını"*** yola saldılar. 6-ay ətraflı araşdırmanın sonucu olaraq Milli birlik, Torpaq bütövlüyü və Güney bağımsızlığı təməlləri üzərində dayanan **QURTULUŞ** məramnaməsi işiq üzü gördü. Məramnamə daha da bilimsəl olsun diyə, şəhid Zehtabi də içində bulunan böyüklərimizin baxışına buraxıldı. Yüksək səviyədə alqış qazanan **QURTULUŞ** məramnaməsi 1991-ci ilin payızında bilgilərə sunuldu. Çox az bir zamanda üniversitetlərdə və gənclər arasında yayılan məramnamə əldən ələ gəzməyə başladı. **QURTULUŞ**-un məramnaməsi tam anlamı ilə yeni bir milli qaynaq sayılırdı. Niyə ki, o günədək yayılmayan yeni düşüncələri açıqcasına ortaya qoymuşdur. Örnək olaraq, Azərbaycan tarixində ilk kəz olaraq **Azərbaycan Türk Milləti** temini ortaya qoyuldu. Bu termin ilk başda Güneyli- Quzeyli bir çoxlarının dirənişməsinə nədən olsa da, çox keçmədə böyük alanda qəbul olunmağa başladı. Quzeydə ilk dəfə olaraq Elçibəy tərəfindən səslənilən bu termin bütün önəmli siyasilər tərəfindən səslənilməyə başladı. Yenə ilk dəfə olaraq bugün geniş alanda Azərbaycan və Türklər içində yayqınlaşan **İran adlanan ölkə** termini AQT məramnaməsində əks edildi. Bu haqda məramnamənin 3-cü səhifəsində belə yazılır: *"...AQT yuxarıda göstərilən faktorlara görə, İran adlanan çox milliyyətli müstəmləkəçi cöğrafi qurumu qondarma, istemarçı dövlət elan edir..."*. Yenə ilk kəz olaraq Azərbaycanla bağlantısı olan məramnamələrdə **"Ülkü" və "Milli-siyasi"** kimi terminlər işlənildi.

1992-ci ildən genişlənməyə başlayan **QURTULUŞ**, Təbrizdən sonra Ərdəbil, sonra isə Urmu, Sulduz, Zəngan, Tehran, Xoy, Mərənd vb. şəhərlərdə fəallaşdı. Həmin ilin sonlarında **QURTULUŞ**-un Bakı brosu açıldı. Öyrəncilər tərəfində çox sayda kopiləri nəzərə almadan 1994-cü ilədək **QURTULUŞ** məranmaməsi 6 dəfə Ərəb, Latin və Kril əlifbalarında çap olundu. Məramnamənin İngilizcə və Farsca varyantları hazır olmaq ərəfəsində Rejimin **QURTULUŞ** üzərində basqısı artmağa başladı. **QURTULUŞ**-un əldə

etdiyi çapxana imkanları rejimin əlinə düşdü. Fəalları təqibə uğradı, bir çox qurtuluşçu, öz yaşadığı yerdən uzaqlaşdı. 1995-ci il **QURTULUŞ** üçün ən ağır və yoğun il oldu. Həmin il **QURTULUŞ** Panfaşist fars sovinizminin ən ağır darbalarına uğradı. Rejim **QURTULUŞ**-un kök salmasından qorxuya düşərək basqısını çoxaltdı. Tutuqlamalar, gizli yaşamalar və ölkəni buraxmaq gərəyində qalanlar olunca **QURTULUŞ** öz milli-siyasi fəaliyyətinin formasını dəyişdi. Təkcə milli-siyasi yöndə deyil, uşaqlar, gənclər, idman, incəsənət və kültür alanında da fəal olan **QURTULUŞ** durumla bağlı forma dəyişməsilə Rejimin darbalarından əmanda qalmağa çalışdı. Bu üzdən, öz fəaliyyətini dondurmuş kimi göstərən **QURTULUŞ**, çox saylı dərnək, ocaq və araşdırma mərkəzlərində yöntəmli çaba göstərməyə üstünlük verdi.

Və bugün **QURTULUŞ** -un 17-ci və May (Xordad) Milli Ayaqlanmanın etgisinin duyulduğu bir dönəmdə çox qurur və alın açıqlığıyla güclü, savadlı, dünya görüşlü, çağdaş və yüksələn bir qurtuluşçu kadroyla ulusumuzun milli diləklərinin yolundayıq.
Azərbaycanın Güney istiqlaliyyətini, Qarabağın ərməni basqısından qurtarmasını və bütövlük ruhunun qudsallaşmasını özünün ən üstün ideyalı saymaqda olan **QURTULUŞ** -çilər daha da verimli və etgili olmaq yolunda, örgütlənmə yüksəlişini gərəkli hesan edir, bundan sonra
***Güney Azərbaycan Qurtuluş Partiyası (Qurtuluş)*** adı altında çabasını sürdürəcəkdir.
**Qurtuluş**, Xordad (May) şəhidlərinin qudsal qanları qarşısında and içərək ana Güneyimizin düşmən əlindən qurtarması uğrunda gücündən gələni etməyə, başda istiqlalçılar olmaqla Güneyin qurtuluşu uğrunda addım atan bütün qardaş quruluşlarla iş birliyi yapmağa, birlik ruhunu pozanlar, var olan Azərbaycan dövlətçiliyinə, bayrağına ihanət edənlərə qarşı sərt davranmağa söz verir.
Qurtuluş, bu yeni aşamada bütün milli mediyalara, radiyo və TV-lərə, internet ilişimlərinə, iş orqanlarına vb. milli alan yiyələrinə üz tutaraq yardımçı olmaqlarını təmənni edir. 1990-da sırtını öz millətinə verən Qurtuluş, bugün də, millətin köksündə yer almaqdadır. Biz ulu millətimizin sırtının nə qədər güclü olduğunu yaxşı bilirik.

Yaşasın ulu Azərbaycan Türk Milləti!
Yaşasın "Haray-Haray Mən Türkəm" diyən çağdaş millətçi gəncliyimiz!
Unudulmaz olsun qurtuluş yolunda al qanları tökülən Xordad şəhidlərinin adı və ideyalları!

GÜNEY AZƏRBAYCAN QURTULUŞ PARTİYASI – QURTULUŞ
YÖNƏTİM QURULU
2008-01-22